lıq gətirilməsinin vacibliyini vurğuladı.



# Qalib Azərbaycan: Yeni əməkdaşlıq formatlarının müəllifi

## *Bu reallığı ölkəmizin təşəbbüsü ilə keçirilən nüfuzlu beynəlxalq tədbirlər bir daha təsdiq edir*

**Bu gün Azərbaycan təkcə Şərqdən-Qərbə və Qərbdən-Şərqə gedən yolların qovuşduğu bölgə deyil, habelə siyasi və iqtisadi maraqların, dinlərin, mədəniyyətlərin, sivilizasiyaların da bir araya gəldiyi məkan və vəhdət rəmzidir.**

Ümumbəşəri və qlobal problemlərin həlli ayrılıqda götürülmüş bir və bir neçə dövlətin fəaliyyətindən deyil, dünya dövlətlərinin bu istiqamətdəki birgə səylərindən asılı olduğundan müasir dövrdə dövlətlərarası təşkilatların rolunun günbəgün daha da artdığını xüsusi vurğulamağa ehtiyac yoxdur. Ancaq onu demək lazımdır ki, bu təşkilatların böyük əksəriyyəti beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq, xalqların bərabərliyi və öz müqəddəratını təyin etmək prinsiplərini rəhbər tutaraq millətlər arasında dostluq münasibətlərini inkişaf etdirmək, iqtisadi, sosial, mədəni və humanitar xarakterli problemlərin həllində beynəlxalq əməkdaşlığı həyata keçirmək kimi vacib məsələləri əsas fəaliyyət istiqaməti kimi özündə birləşdirir.

**(davamı 8-ci səhifədə)**

# Qalib Azərbaycan:

## Yeni əməkdaşlıq formatlarının müəllifi

(əvvəli 1-ci səhifədə)

Təsadüfi deyil ki, məhz bu cür toplantılar dövlətlərin bir-birini tanıması üçün də ən yaxşı vasitə hesab olunur. Bu mənada respublikamızda, onun paytaxtı Bakı şəhərində son illərdə həyata keçirilən beynəlxalq səviyyəli tədbirlərin əhəmiyyəti böyükdür. Ölkə başçısı İlham Əliyev Davosda "CNN-İnternational" televiziya kanalına verdiyi müsahibədə beynəlxalq səviyyəli, nüfuzlu tədbirlərin əhəmiyyətindən danışarkən demişdir: "Ölkə inkişaf edir... Biz ölkəmizi beynəlxalq biznes ictimaiyyəti və xüsusilə də Azərbaycan ilə hələ də əməkdaşlıq etməyən işgüzar dairələrə daha geniş şəkildə təqdim etmək istəyirik. Biz qapılarımızı geniş şəkildə açmışıq və dostlarımızı, tərəfdaşlarımızı Azərbaycanda işləməyə, sərmayə qoymağa dəvət etmək istəyirik... Dünya İqtisadi Forumu bu baxımdan ən əlverişli məkandır".

Əslində, Bakıda Azərbaycanın təşəbbüsü ilə keçirilən beynəlxalq tədbirlər də buna xidmət edir.

Ölkəmiz müntəzəm olaraq Bakı Beynəlxalq Humanitar forumlarına, Mədəniyyətlərarası Dialoq forumlarına və digər tədbirlərə də evsahibliyi edir. Hətta Amerika və Rusiya baş qərargah rəislərinin bir neçə görüşü də Bakıda keçirilib. Azərbaycan olimpiadaların, beynəlxalq idman yarışlarının yüksək səviyyədə keçirildiyi ölkədir. Birinci Avropa Oyunlarını, IV İslam Həmrəyliyi Oyunlarını, habelə Formula-1 kimi beynəlxalq yarışları yüksək səviyyədə təşkil edən Azərbaycan son illərdə bir çox beynəlxalq tədbirlərin böyük uğurla keçirildiyi sülh məkanına çevrilib. 2013-cü ildən keçirilən Qlobal Bakı Forumu da uğurlu layihələr sırasındadır.

Bəs bu cür beynəlxalq tədbirlərin keçirilməsi üçün Bakının seçilməsinin səbəbi nədir? Bu suala cavab vermək o qədər də çətin deyil. Əvvəla, heç bir hərbi təşkilatın üzvü olmayan Azərbaycan güclü beynəlxalq nüfuza malikdir. O, bütün qonşuları və müttəfiqləri ilə qarşılıqlı etimada əsaslanan əlaqələr qurub. Bütün bunlar isə ölkəmizin sabitləşdirici amil kimi rolunu daha da artırıb. İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın nümayiş etdirdiyi fəaliyyət mexanizmi indi dünya miqyasında təqdir olunur. Beyin mərkəzləri etiraf edir ki, Cənubi Qafqazdakı təhlükəsizliyi təhdid edən 30 illik münaqişə məhz Azərbaycanın səyləri hesabına həll olunub və bunu Azərbaycan təkbaşına edib.

Ulu öndər Heydər Əliyev ölkəyə rəhbərliyi dövründə həmişə beynəlxalq tribunalara xüsusi önəm verib və həmin tədbirlərdə Azərbaycanın səsi eşidilib. Bu toplantılarda o, ölkəmiz haqqında, onun siyasi, iqtisadi və sosial-mədəni inkişaf göstəriciləri barədə geniş məlumat verir, Azərbaycanın karbohidrogen ehtiyatlarla zəngin olduğunu və bu resurslardan dünyanın gələcək inkişafı naminə istənilən ölkə ilə qarşılıqlı maraqlar əsasında istifadə etmək prinsiplərini özündə əks etdirən xarici iqtisadi siyasət xətti tutduğunu bəyan edirdi. O, deyirdi: "Zəngin neft və qaz yataqları, digər təbii sərvətləri olan Azərbaycan müasir dünyanın istifadə etdiyi prinsiplər əsasında xarici investisiyalar, xarici şirkətlərlə əməkdaşlıq üçün, dünya üçün açıqdır".

Ümummilli liderin layiqli davamçısı, Prezident İlham Əliyev də bu yolu əsas tutaraq, dünyanın müxtəlif yerlərində keçirilən toplantılarda fəal iştirak edir, onun təşəbbüsü ilə Bakıda tədbirlər təşkil olunur. 1994-cü ildən etibarən Bakıda təşkil edilən Xəzər Neft və Qaz Sərgisi hər il Xəzər regionunun əsas neft-qaz layihələrini müzakirə və enerji təhlükəsizliyini təmin etmək üçün ən yüksək səviyyəli rəhbərləri bir araya gətirir. Azərbaycanın neft strategiyasında özünəməxsus yer tutan bu sərgi 1994-2003-cü illərdə ümummilli lider Heydər Əliyevin hakimiyyəti dövründə baş tutub və indi də davam edir. Sərgiyə maraq getdikcə artır. Bunu iştirakçıların sayının artması da təsdiqləyir. Hər il baş tutan Xəzər Neft və Qaz Sərgisi neft-qaz və energetika sahəsində aparıcı peşəkarların görüş yerinə çevrilib və burada gələcək əməkdaşlığa dair çoxlu sayda memorandumlar, eləcə də saziş və müqavilələr imzalanır. Həmçinin ölkəmizin real imkanlarının, onun problemlərinin dünyaya çatdırılmasında böyük rol oynayır.

*Bu reallığı ölkəmizin təşəbbüsü ilə keçirilən nüfuzlu beynəlxalq tədbirlər bir daha təsdiq edir*

Postmüharibə dövründə ADA Universitetinin təşkilatçılığı ilə keçirilən beynəlxalq konfranslar əlamətdar hadisə kimi qəbul edilir. 2021-ci ilin aprelində "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adı altında keçirilən beynəlxalq konfransdan sonra, 2022-ci ilin aprelində "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" mövzusunda növbəti beynəlxalq konfrans baş tutdu. Əlbəttə ki, bu konfransların keçirilməsi xarici ekspertləri, siyasətçiləri maraqlandıran sualların birbaşa ölkə rəhbəri tərəfindən cavablandırılması Azərbaycanın informasiya müstəvisində öz reallıqlarını, gələcək hədəflərini dünya ictimaiyyətinə çatdırması baxımından fövqəladə əhəmiyyətə malikdir. Nəzərə alsaq ki, 1990-cı illərdə - Birinci Qarabağ müharibəsi dövründə Azərbaycanın ən böyük problemlərindən biri məhz informasiya blokadasında olması idi, onda bu gün bu istiqamətdə atılan addımların vacibliyi daha çox nəzərə çarpır. "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" mövzusunda konfransın Şuşada başlanması, Bakıda davam etdirilməsi önəmli hadisə idi. Dövlət başçısı da bundan sonra belə konfransların işğaldan azad olunmuş torpaqlarımızda keçiriləcəyini vurğulayıb.

Qeyd edək ki, konfrans iştirakçıları işğaldan azad olunmuş ərazilərdə aparılan yenidənqurma işləri, Füzuli hava limanı, yeni Zəfər yolu ilə tanış olublar. Bununla yanaşı, 30 il ərzində işğal altında olan torpaqlarda düşmənin törətdiyi vəhşilikləri, kənd və şəhərlərimizin əksər hissəsinin dağıdılıb yerlə-yeksan edildiyini gözləri ilə görüblər. İşğaldan azad olunmuş ərazilərdə ölkə və beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi ilə erməni vəhşiliyi dünyaya real vəziyyətdə, maddi sübut kimi təqdim olunur.

Bu il aprelin 25-də Şuşada Dünya Azərbaycanlılarının V Qurultayı - Zəfər Qurultayı keçirildi. Tarixi qələbədən sonra ilk dəfə dünya azərbaycanlıları bir araya gəldi. İki gün çəkən qurultaya dünyanın 65 ölkəsindən diaspor nümayəndəsi qatılmışdı. Şuşanın erməni vandalları tərəfindən dağıdılmış tarixi binalarının qarşısında quraşdırılmış tribunadan, həm dünya azərbaycanlılarına, həm ermənilərə, həm də illərlə işğala havadarlıq edən qüvvələrə önəmli mesajlar çatdırıldı.

Zəfər Qurultayının bağlanış mərasimində iştirakçıların Azərbaycan Prezidenti İlham Əliyevə müraciəti qəbul olundu. Müraciətdə bildirilirdi ki, qurultayın Şuşada keçirilməsi ciddi ictimai-siyasi hadisədir. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə həyata keçirilən Azərbaycan Ordusunun "Dəmir yumruq" əməliyyatının incəlikləri dünyanın müxtəlif hərbi mərkəzləri tərəfindən öyrənilməkdədir. Həmçinin Dünya Azərbaycanlılarına, UNESCO-ya və BMT-nin Ətraf Mühit Proqramına (ONEP), eləcə də Ermənistanın işğalı nəticəsində Azərbaycanda yaranmış mina problemi ilə bağlı beynəlxalq ictimaiyyətə müraciətlər və qurultayın qətnaməsi də qəbul edilib.

Ölkəmizdə 2013-cü ildən etibarən keçirilən Qlobal Bakı forumlarının Azərbaycan həqiqətlərinin dünyada təbliği və təşviq olunması baxımından əhəmiyyəti böyükdür. Bu günlərdə baş tutan IX Qlobal Bakı Forumunun əhəmiyyəti Azərbaycanın İkinci Qarabağ müharibəsində qazandığı parlaq qələbə fonunda indi daha aydın görünür. Prezident İlham Əliyevin himayəsi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən Qlobal Bakı forumları isə son 10 ildə Azərbaycanın əldə etdiyi uğur sərmayələrindən biridir. Bu, ölkəmizin milli maraqlarının təmin olunmasına, Azərbaycan həqiqətlərinin dünyada təbliğinə yönəldilib.

Bir sözlə, respublikamızda keçirilən beynəlxalq tədbirlər Azərbaycana artan etimadın göstəricisi olmaqla, həm də dünya çapında nüfuzunun güclənməsinə zəmin yaradır.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**

Respublika 2022.- 5 iyul.- S.1;8.